# Müstəqillik illərində inkişaf tariximiz

# 30-cu ildönümümüz .

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**(UNEC)**

**Tələbə:**Cəfərova Lamiyə Tərlan qızı

**İxtisas:** Qida Mühəndisliyi

**lamiyeceferova111@gmail.com**

***Xülasə:*** Dövlət müstəqilliyinin yenidən bərpasından ötən 30 illik dövr Azərbaycan Respublikasının siyasi, iqtisadi,ictimai inkişafında mürəkkəb və şərəfli bir mərhələ olmuşdur. İnkişaf yolu heç də hamar olmayıb. Müstəqilliyinin ilk illərində Azərbaycan dövləti bir çox siyasi və iqtisadi problemlərlə üzləşib. Məqalədə Azərbaycanın ikinci dəfə müstəqillik əldə etdikdən sonrakı inkişaf mərhələsi, qarşıya çıxan problemlər və bu problemlərin həllində Azərbaycan Respublikasının Ulu Öndəri Heydər Əliyev və davamçısı prezident İlham Əliyevin uzaqgörən siyasəti öz əksini tapmışdır.

***Açar sözlər:*** Azərbaycan, prezident, inkişaf,müstəqillik, dövlət, siyasət

Bu gün Azərbaycan müstəqil dövlətdir. Tarix dəfələrlə sübut etmişdir ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan olduqca çətindir. Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etməyi bacardı və özünün suveren dövlətini yaratmaq imkanı əldə etdi.

Müstəqilliyin əldə olunması bir tarixdir.Məlumdur ki, 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti 23 ay yaşadı. Buna səbəb daxili çəkişmələr və xaricdən gələn müdaxilələr idi.Lakin ikinci tarixi imkan 70 il

sonra yenidən yarandı.Sovet imperiyasının dağılması Azərbaycana öz müstəqilliyini yenidən bərpa etmək imkanı qazandırdı.

1991-ci il oktyabrın 8-də Azərbaycan Ali Sovetinin işə başlanan növbədənkənar sessiyası 4 gün müzakirələr aparıb. Nəticədə 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd olan Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olundu.Konstitusiya Aktının qəbulu Azərbaycan Respublikasında davamlı inkişafın təmin olunmasında, ictimai həyatın tənzimlənməsində,milli siyasətin formalaşmasında rol oynadı.

Müstəqillik əldə olunandan sonra ölkədə daxili böhran yarandı. Orduda vəziyyət ağırlaşırdı. İctimai sahələrdə də özbaşınalıq baş alıb gedirdi və xalq bir sıra problemlərlə üzləşdi. Bununla yanaşı erməni təcavüzü də günü-gündən artırdı. Əsas problemlərdən biri isə hakimiyyət boşluğunun olması idi.

Hakimiyyəti ələ almaq üçün müxtəlif qruplar və şəxslər arasında mübarizə gedirdi. Bu çətin dönəmdə xalq Azərbaycanın görkəmli oğlu Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Heydər Əliyev dəvəti qəbul edib Bakıya gəldi və qısa zamanda vətəndaş müharibəsinin qarşısını aldı.

Heydər Əliyevin 1993-cü il hakimiyyətə gəlişi ilə Azərbaycan yeni bir inkişaf dövrünə qədəm qoydu. Müstəqil dövlət quruculuğu prosesi başladı.Milli Ordu formalaşdırılmağa başladı,nizami silahlı qüvvələr yaradıldı.Bunun nəticəsidir ki, 1994-cü ildə ölkəmiz üçün həyati əhəmiyyət daşıyan atəşkəs elan olunmuşdur. 1994-cü ilin sentyabrnda "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması və həyata keçirilməsi məhz Heydər Əliyevin təşəbbüsü ilə baş vermişdir. Bu neft strategiyası iqtisadi inkişafın başlanğıcına bir addım atdı.

Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı Heydər Əliyevin qətiyyəti sayəsində alınmış və dövlət müstəqilliyi qorunub saxlanmışdır.Heydər

Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına sərbəst,azad, yaşamaq hüququnu təmin etmək imkanı verirdi.

1995-ci ilin noyabrında referendum yolu ilə Konstitusiyasının qəbul edilməsi,1995 və 2000-ci illərdə çoxpartiyalılıq əsasında demokratik parlament seçkilərinin keçirilməsi, Konstitusiya məhkəməsinin fəaliyyətə başlaması Heydər Əliyevlə bağlıdır.Heydər Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

2003-cü ilin prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmiş və öz namizədliyini İlham Əliyevin xeyrinə geri götürmüşdü. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan 1993-cü ildən sonrakı on il ərzində böyük və şərəfli yol keçdi. 1993-2003-cü illər ölkəmizdə sabitlik və inkişaf illəri kimi yaddaşlarda və tarixdə qaldı. Dövlətçiliyimizin əsası qoyuldu. Azərbaycan hər sahə üzrə inkişaf etdi və bütün dünyada tanındı.

Heydər Əliyev siyasətinin davamçısı siyasi zəkası və uzaqgörənliyi ilə tanınan oğlu İlham Əliyev oldu. İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi bu 18 il ərzində ictimai-siyasi həyatın bütün sahələri inkişaf etmiş, əhalinin həyat səviyyəsi yüksəlmişdir. Aərbaycan 2013-cü ildə prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində kosmik klubun üzvü olmuşdur. Mədəniyyətin,elmin,sənayenin,incəsənətin inkişaf etdiyi bu 30 ildə Azərbaycan regionun lider dövlətlərindən birinə çevrilmişdir.

Azərbaycanda təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərilir.

İlham Əliyev 5 may 2004-cü ildə "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin yaradılması haqqında Sərəncam imzaladı. 21 oktyabr 2009-cu ildə imzalanan Sərəncamla isə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu yaradıldı. Qeyd etmək lazımdır ki, son 15 ildə təhsil olduqca maksimum səviyyəyə çatmış,üç mindən çox məktəb binası tikilmiş və istifadəyə verilmişdir. Təhsilin bu qədər inkişaf etməsinin başlıca səbəblərindən biri Ulu Öndər Heydər Əliyevin təhsilə göstərdiyi diqqət ilə bağlıdır. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda qarşıya qoyulan tələblərə uyğun olaraq təhsil sistemində uğurlu



qərarlar verilir və yerinə yetirilir.

Bu gün Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifələrindən biri gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyə etməkdir. Bu sahədə isə bizlərə

dəyərli müəllimlər kömək edir. Bu gün prezidentimizin təhsilə göstərdiyi qayğı öz bəhrəsini verməkdədir.

Səhiyyənin inkişafı sağlamlığımızın sığortasında öz əksini tapmışdır.

Son vaxtlarda müasir dünya standartlarına uyğun inkişaf yolu tutmuş Azərbaycan səhiyyəsinin nüfuzu günbəgün artır. Azərbaycan səhiyyəsi yeni aparatlarda təchiz olunur, işçi qüvvələri artırılır, vətəndaşlar pulsuz dərman vasitələri və preparatlarla təmin olunur.

Ilham Əliyev 2003-ci ildə "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", 2005-ci ildə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" qanunlar imzalamışdır.

Prezident İlham Əliyev 2007-ci il 27 dekabr tarixində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət



Agentliyinin yaradılması haqqında Sərəncam imzaladı.İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxiş" İnkişaf Konsepsiyasinda əhaliyə göstərilən səhiyyə xidmətlərinin yüksək keyfiyyətini qoruyub saxlamaq əsas prioritetlərdən biri kimi müəyyən olunmuşdur.

Yeyinti sənayesi Azərbaycanda istehsal edilən məhsulların miqdarına və bu sahədə məşğul olan əhalinin sayına görə sənaye sahələri arasında birinci yeri tutur. Bu sahə respublika təsərrüfatının ixtisaslaşmış sahələrindən biridir. Son illərdə isə yeyinti sahəsi daha çox inkişaf edərək zirvəyə qalxmışdır.Yeyintilərin yoxlanılması,istehsalı,satışa verilməsi daha çox məsuliyyət tələb edir.

Buna görə də  prezident İlham Əliyevin 10 fevral 2017-ci il tarixli fərmanı əsasında "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi" yaradılmışdır. Ölkəmizdə yeyinti sənayeləri olduqca çoxdur.Həm iri şəhərlərdə, həm də rayonlarda müxtəlif yeyinti üzrə sənayelərimiz mövcuddur.

Çörəkbişirmə, makaron, süd sanayesi müəssisələri iri şəhərlərdə və sıx əhali məskunlaşmış istehlak rayonlarında yerləşir.Bir çox yeyinti sanayesi məhsullarının (üzüm, tütün, çay) ilkin emalı xammal rayonlarında aparılır. Lakin onlar son məhsula istehlak rayonlarında çevrilir. Balıq məhsullarının emalı zavodları sahil rayonlarında yerləşir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda yüngül sənayenin inkişafı qədim dövrlərdən məlumdur**.**

Azərbaycanda yüngül sənaye mallarına olan daxili tələbatın 90 faizi idxal hesabına ödənilir. Azərbaycana yüngül sənaye, xüsusən də geyim malları əsasən xaricdən – Türkiyə, İran, Çin və bəzi Avropa ölkələrindən gətirilir. Araşdırmalardan belə məlum oldu ki, 2008-ci ildən üzübəri bir çox istiqamətlər üzrə müsbət artım dinamikası müşahidə olunur. Pambıq mahlıcı, hazır ipək parçalar, pambıq yataq ağları, pambıq ipliyi, corab və ayaqqabı istehsalında

artım var. 2014-cü ilin dekabrında Azərbaycanda yerli sənayenin inkişafı ilə bağlı Dövlət Proqramı qəbul olundu. Azərbaycanda yerli sənayenin inkişafı ilə bağlı Dövlət Proqramında göstərilir ki, sənədin əsas məqsədi sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, enerjidən səmərəli istifadə edən, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi, yeni istehsal sahələri üçün ixtisaslı kadrların hazırlanmasıdır.



Son 30 ilə baxanda Azərbaycan bəlkə özünün də fərqində olmadan böyük işlərə imza atmış,hər bir sahədə zirvəyə yüksəlmişdir.İndi müstəqilliyimizin siyasi və iqtisadi sütunları getdikcə möhkəmlənir. Xalqın öz dövlətçiliyini sarsıdan heç bir narahatçılığı yoxdur. Müstəqilliyin taleyini müəyyənləşdirən əsas amillər qorunub saxlanır, inkişaf etdirilir. Dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına, milli-mənəvi dəyərlərin qorunub saxlanmasına eyni dərəcədə diqqət verilir.

Uğurla həyata keçirilən iqtisadi siyasət sayəsində ölkə modernləşdirmə xətti ilə yüksək templə inkişaf edir və hazırda formalaşmış iqtisadi baza, maliyyə resursları, insan kapitalı imkan verir ki, növbəti illərdə Azərbaycan dövləti qarşıda duran yeni, böyük məqsədlərə çatmaq üçün daha sürətlə addımlasın. Dünyada yaşanan, pandemiya nəticəsində dərinləşən böhran, əlbəttə

ki, bir çox şirkətlərə mənfi təsir göstərib. Ancaq bu şəraitdə də dövlət başçısının uzaqgörən və ağıllı siyasəti nəticəsində Azərbaycan elə addımlar atır ki, postpandemiya dövrünə ən hazırlıqlı ölkələr sırasında ola bilsin.

Nəticədə, Azərbaycan vaxt itirmədən bütün sahələrdə yeni inkişaf dinamikasına sahib olacaq.



**Ədəbiyyat**


1. «Prezident İlham Əliyev regional təhlükəsizlik haqqında» Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Bakı 2010. İdeya müəllifi və redaktor: Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev
2. https://genprosecutor.gov.az/az/post/2156
3. https://republic.preslib.az/az_a3.html
4. http://www.anl.az/18oktyabr.html
5. https://customs.gov.az/az/xeberler/820_azerbaycanin-dovlet-musteqilliyi-ebedidir-sarsilmazdir-donmezdir/
6. https://www.fhn.gov.az/newspaper/?az/news/view/9363/1
7. http://anl.az/down/meqale/azerbaycan/2010/may/118834.htm
8. https://customs.gov.az/az/xeberler/515_bu-gun-musteqil-azerbaycan-dovletinin-oz-siyasi-dest-xetti-dovletcilik-simasi-in%C2%ADki%C2%ADsaf-yolu-vardir/
9. https://republic.preslib.az/az_c6.html
10. http://www.xocavend-ih.gov.az/news/1061.html
11. https://www.azerbaijans.com/content_719_az.html
12. https://www.azerbaijans.com/content_720_az.html
13. https://xalqqazeti.com/mobile/az/news/3292